# Sənət, dil, vətən və vətəndaşlıq məktəbi

XIX əsrin sonlarına doğru vur-tut 2 ilə yaxın bir müddətdə nəşr olunan və milli mətbuatımızın ilki sayılan "Əkinçi" ədalət, cəhalət, mövhumat mənqənəsində, qaranlıq cəmiyyətdə boğulan Azərbaycan xalqının elm, tərəqqi. Təhsil və mədəniyyət yoluna əbədi işıq saçan şimşəyə bənzəyir, "Əkinçi"nin toxumundan cücərən "Şərqi-rus", "Həyat", "Füyuzat" və digər mətbu orqanlar ulusun həyat və düşüncə tərzinə növbəti təkan verdilər, milli şüur və özünüdərkin inkişafında misilsiz xidmət göstərdilər. Mətbuat tarixinin tədqiqatçısı kimi qəti qənaətdəyəm ki, son 75 ildə ədəbi-mədəni-mənəvi irsimizin saxlanılmasına, təbliğinə və bu xəzinənin zənginləşməsinə "Ədəbiyyat qəzeti" qədər xidmət göstərmiş ikinci mətbu orqan olmamışdır.

1934-cü ildə - repressiya tufanının yaxınlaşdığı zaman ilk nömrəsi işıq üzü görən qəzetin nəşri tarixində ictimai-siyasi həyatda təbəddülatlar, burulğanlar, fırtınalar olmuşdur. "Ədəbiyyat qəzeti" sözün, sənətin keşiyində sərkərdə sərhədi göz qırpmadan qoruyan əsgər kimi durmuşdur. Qəzet bəzən intriqalar, ideoloji, hətta şəxsi münasibətlərə aydınlıq gətirmək üçün meydana çevrilmiş, ondan kimi, yaxud kimləri isə aradan götürmək üçün vasitə kimi istifadəyə də cəhd olunmuşdur. Lakin başlıca ideyaya, ana xəttə xələl gəlməmişdir: klassik və müasir ədəbi irs təbliğ olunmuş, yeni əsərlər dəyərləndirilmiş, ədəbi məhsulun dili, üslubu, sənətkarlıq problemləri, ideya-məzmun məsələlərinə münasibət bildirilmişdir. "Ədəbiyyat qəzeti"nin xidmətlərindən söz açanlar qəzetin ədəbi mühitlə nəfəs aldığını, qələm əhlini səfərbər etdiyini, istiqamətləndirdiyini, müəyyən məsələ barədə ictimai rəyin formalaşmasına təsir göstərdiyini, gənclərə qayğı ilə yanaşdığını, istedadlara meydan verdiyini, əlinə yenicə qələm alan şairi, yazıçını, publisisti, tərcüməçiləri pərvazlandırdığını haqlı olaraq dönə-dönə qeyd edirlər. Amma qəzetin fəaliyyətinə bir qədər geniş aspektdə nəzər salanda və onun mətbuat tarixindəki yeri və rolunu müəyyənləşdirmək istədikdə, bu nəticəyə gəlirsən: "Ədəbiyyat qəzeti"nin hər yeni nömrəsi ayrılıqda ədəbi prosesin bir çırpıntısı, ədəbi düşüncənin əks-sədasıdır. Lakin bütövlükdə o bir salnamədir, xəzinədir. 75 yaşlı "Ədəbiyyat qəzeti" Azərbaycan ədəbiyyatının 1000 illik yazılı söz sənətini, yaşı bilinməyən şifahi söz yaradıcılığını özündə yaşadan bir ensiklopediyadır. Bu qəzet sənət, dil, vətən və vətəndaşlıq məktəbidir. Bu qəzet, təkcə ədəbiyyatın yox, bütövlükdə Azərbaycan tarixinin əvəzolunmaz mənbəyi, məxəzidir. Bu xəzinənin yaradılmasında iştirak edən, lakin bu gün həyatda olmayan insanların ruhu daim şad olsun - deyirik, onların xələflərinə isə müqədəds məramda uğurlar arzulayırıq.

**Abid TAHİRLİ**

Ədəbiyyat qəzeti.- 2009.- 18 oktyabr. S. 6.